V

# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 09

Bakı şəhəri "12" yanvar 2011-ci il

**"2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın həyata keçirilməsi barədə"**

"2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 noyabr 2010-cu il tarixli 222 nömrəli Qərarının həyata keçirilməsini təmin edilməsi, eləcə də şəkərli diabet xəstəliyindən əziyyət çəkən xəstələrə göstərilən tibbi xidmətin yaxşılaşdırılması, keyfiyyətinin və səmərəsinin artırılması məqsədilə

**ƏMR EDİRƏM:**

1. "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Respublikanın səhiyyə idarə və müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, adı çəkilən Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin vaxtında və keyfiyyətli həyata keçirilməsi təmin edilsin və görülən işlər barədə hər yarımilliyin sonunda Səhiyyə Nazirliyinə məlumat təqdim edilsin.
3. Maliyyə-iqtisadiyyat şöbəsinə tapşırılsın ki, illik büdcə sifarişlərində "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın reallaşması üçün tələb olunan vəsaitin nəzərdə tutulması təmin edilsin.
4. Əmrin icrasına nəzarət Nazir müavinlərinə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 12.01.2011 tarixli 09 nömrəli əmri ilə təsdiq edilmişdir

# "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin

## Tədbirlər Planı

| | Tədbirlərin adı | Məsul icraçı | İcra müddəti | Tərəfdaş qurumlar |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **1. Tədbirlər Proqramının həyata keçirilməsində təşkilati tədbirlər** | | | | |
| 1.1. | Şəkərli diabet xəstələrinin vahid elektron registrinin və məlumat bazasının yaradılması | SİM, REM, yerli tibb idarə və müəssisələri | 2011–2012 | |
| 1.1.1 | Şəkərli diabet xəstələrinin dərman preparatları və özünənəzarət vasitələrlə təmin olunmasının monitorinqinin təmin edilməsi məqsədilə kompüter proqramının hazırlanması və tətbiq edilməsi | TYTŞ, SİM, ETHvəTİ | 2011 | |
| **2. Şəkərli diabet xəstəliyinin profilaktikası, müalicəsi və reabilitasiyası** | | | | |
| 2.1. | Şəkərli diabetin fəsadlarının profilaktikası məqsədi ilə tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin genişləndirilməsi | REM | 2011–2015 | Azərbaycan Diabet Cəmiyyəti, Diabet Liqası |
| 2.2. | Şəkərli diabet xəstələrinin insulin və digər şəkərsalıcı dərman preparatları, özünənəzarət vasitələri ilə davamlı təmin edilməsi | İvəTM, yerli tibb idarə və müəssisələri | mütəmadi | |
| 2.3. | Şəkərli diabet xəstəliyinin kompensasiya mərhələsinin müəyyən edilməsi məqsədi ilə tibb müəssisələrinin qlükozalaşmış hemoqlobinin təyini üçün avadanlıq və reaktivlərlə təmin edilməsi | İvəTM, yerli tibb idarə və müəssisələri | 2011–2012 | |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 2.4. | Şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların hazırlanması və tətbiqi | İSİM, REM | 2011—2015 | ÜST |
| 2.5. | Şəkərli diabetə düçar olmuş uşaq və gənclər üçün yay düşərgələrinin təşkili, onların tibb işçiləri və tibbi ləvazimatla təmin edilməsi | TYTŞ, BBSİ, REM | 2011—2015 | Diabet Liqası, Azərbaycan Diabet Cəmiyyəti |
| | **3. Kadr hazırlığı** | | | |
| 3.1. | Şəkərli diabetin profilaktikası, diaqnostikası və müalicəsi üzrə mütəxəssislərin hazırlanması | KETŞ, ADHTİ, ATU | 2011—2015 | |
| 3.2. | Şəkərli diabetlə mübarizə üzrə mütəxəssislərin beynəlxalq konqres, konfrans və simpoziumlarda iştirakının təmin edilməsi | KETŞ, BƏŞ | 2011—2015 | |
| 3.3. | İlkin səhiyyə xidməti müəssisələrində çalışan tibb işçiləri üçün şəkərli diabetin aşkarlanması və müalicəsi üzrə treninqlərin təşkili | SN-nin baş endokrinoloqu, REM, | 2011—2015 | |
| | **4. Şəkərli diabetlə mübarizəyə dair maarifləndirmə** | | | |
| 4.1. | Şəkərli diabetin profilaktikasına dair populyar ədəbiyyatın, bukletlərin, vərəqələrin, plakatların çap edilməsi | REM, İSİM | 2011—2015 | Diabet Liqası, Azərbaycan Diabet Cəmiyyəti |
| 4.2. | Kütləvi informasiya vasitələri ilə şəkərli diabetin profilaktikasına dair məlumatların verilməsi | Mətbuat xidməti, REM | 2011—2015 | Diabet Liqası, Azərbaycan Diabet Cəmiyyəti |